Milli-mənəvi dəyərlərimiz haqda

# Həyat: ənənələr və bu günümüz

İnsanlar dünyaya göz açanda da istək donlu, sevgi libaslı olmalı. Onun gəlişi həsrətlə gözlənilməli, sevgi və sevinclə qarşılanmalı - hətta onun bütün əzizləri tərəfindən. Belə insanlar ruhən nikbin doğulurlar.

Yaşa doldaqca sevginin qədəri, istəyin "istiliyi" onların həyatının insanlıq təzahürünü formalaşdırır. Ancaq məhz onun - yəni yeni doğulan insan övladının bir insan kimi formalaşmasında ona ilkin vərdişlərin müstəsna rolu vardır. Hər bir fərd anlar dəqiqələrə, saatlara, günlərə, həftələrə, aylara qədəm basdıqca formalaşaraq böyüyür. Gördükləri, duyduqları yaşantılarla formalaşır, illərini yaşayaraq yetkinləşir, kamilləşir.

Ətraf mühitlə təmas insan ömrünün davamında müstəsna rol oynayır. Ətraf mühit isə zamanına, həmçinin zamanın tələbinə görə dəyişir.

Hər dövrün də öz tələbi var insan ömründə. Bu isə insan həyatında düzgün istiqamətləndirilməlidir ki, cəmiyyət bu fərdlərin ətraf mühitə müsbət aurasını, ən əsası formalaşmasını təmin edə bilsin.

Tarixi vərəqlədikcə hər dövrün, hər əsrin inkişafı dönəmində insanlara təsiri və insanlarda olan dəyişikliklər bizə mənfi və müsbət təsirləri aydın şəkildə biruzə verir.

Cəmiyyət inkişaf etdikcə həyat tərzi də yaxşılaşır və insan beyni və düşüncələri də yaşadığı dövrün inkişafına görə formalaşır.

Azərbaycançılıq ənənələri, milli mənsubiyyət, mentalitet, adətlər xalqın ən zəngin mənəvi sərvəti olmuşdur. Ta əsrlər boyu xalqımıza xas olan xüsusiyyətlər qorunub saxlanılmışdır. Ən adi bir misal; azərbaycanlı qızlar xarici vətəndaşlarla nikaha meyllı deyildilər və bəzi istisnaları nəzərə alsaq, demək olar ki, bu adət-ənənələrimizə zidd sayılırdı. Ancaq hər əsrin də özünəməxsus istək və arzuları "doğulur".

İnformasiya və texnologiya inkişaf etdikcə insanların düşüncə tərzi də dəyişir. Hər kəs bu inkişafdan özünəməxsus tərzdə yararlanmaq istəyir. Geyim, yemək, gəzmək, danışıq tərzi, hətta yaşayış və yaşamaq arzusu belə dəyişir. İnsanlar gördükləri kimi, eşitdikləri kimi hərəkət etməyə meylli olurlar; bu zaman xalqımıza xas olan düşüncə tərzləri qismən kölgələşir. Adi bir misal: SSRİ xalq artisti Zeynəb Xanlarova səhnəyə çıxdığı geyim tərzi ilə müxtəlif xalqların xalq artisti olduğunu sübut edirdi və qadınlarımız o tərzi həyatda özününküləşdirmirdi. Və yaxud Flora Kərimova və s. müğənni və artistlərin, kino və film qəhrəmanlarının geyim və davranış tərzi, səhnəyə aid olanlar elə səhnədə də qalardı və həyatdakı tərz tamamilə fərqli olardı.

Ancaq illər keçdikcə səhnə geyimləri belə dəbə çevrildi və kinofilmlər həyatdan götürülüb həyati bir dərs sayılmaq əvəzinə həyatda tətbiq olunma hallarını biruzə verdi. Hətta fantastik film qəhrəmanlarının "qəhrəmanlıqları" da həyata köçdü, tətbiqinə təsadüf edildi.

Hər bir insan ilk tərbiyəni ailədən alır və tədris müəssisələrinə - bağça və məktəblərə ayaq basdıqdan sonra onun tərbiyəsinə təsir daha da çoxalır. Bu tərbiyədən yararlanan məktəblilər gələcəkdə gözəl bir kadr kimi cəmiyyət içində yer tutur. Ancaq hər kəsin mühiti ona öz təsirini göstərir. Ailə mühiti və ətraf mühit hər bir fərdin həyat tərzində müstəsna rol oynayır.

**Müasirlik**

Müasirlik dedikdə həyat tərzinin günün tələblərinə uyğunluğu nəzərdə tutulur. Ancaq bu müasirliyi də hər kəs özünəməxsus tərzdə qəbul edir, bir sözlə, öz müasir "dünyasını" xarakterinə "köçürür". Televiziya proqramlarına baxdıqca daha çox gözqamaşdırıcı geyimlər, görünüşlər, sensasion xəbərlər, bir sözlə, şou xarakterli verilişlər hər bir körpənin psixologiyasına öz təsirini göstərir. Bəzi yaşlı nəslin nümayəndələri telefonla deyil, televiziya proqramlarına və teleseriallara daha çox meyllidirlər. Ancaq bu verilişlər də, kino-filmlər də düzgün seçilməli, uşaq dünyasına müsbət təsir edəcək proqramlar - verilişlər baxış sayında üstünlük təşkil etməlidir. Düşünülməlidir ki, hər adi hərəkət və söz belə körpələrin tərbiyəsində müstəsna rol oynayır. Bu hər bir ailəni düşündürməlidir. Ən acısı odur ki, dünyaya göz açan hər bir körpə günümüzün ən müasir və maraqlı, əhəmiyyətli "aksesuarı" belə olan telefonlara meyllidirlər. Körpələr laylalarla deyil, telefondakı mahnı-laylalarla böyüyürlər.

Cizgi filmləri onlar üçün o qədər maraqlıdır ki, televiziya proqramları belə onlar üçün kənarlaşır. Və o cizgi filmləri həyatı çox zaman vulqarcasına, tam açıq tərzdə onlara diktə edir.

Buna görə də informasiya və texnologiya əsrini körpələrə düzgün izah etmək və istiqamətləndirmək lazımdır. Bu inkişafın üstünlükləri çərçivəsində onları formalaşdırmağa diqqət artırılmalıdır. Telefonların və sosial medianın əhəmiyyətli, müsbət tərəflərini təbliğ etmək, onların dünyagörüşünə təsirini düşünmək lazımdır ki, gələcəkdə yaşanılacaq faciələrin qarşısı alınsın.

Bəzən telefonla onlayn oyunlar yeniyetmə gənclərin psixologiyasına mənfi təsir göstərir; onların faciəli sonluqla bitdiyi hadisələrlə də rastlaşırıq. Bəzən sosial şəbəkə tanışlıqları gənclərin təlim-tərbiyəsinə pis təsir göstərir, acınacaqlı hadisələr baş verir. Baxdıqları filmlər, videolar, danışmalar, yazışmalar həmişə valideynlərin diqqət mərkəzində olmalıdır. Təkcə valideynlər deyil, həmçinin məktəb müəllimləri belə onlardakı dəyişiklikləri hiss etməli, vaxtında qarşısının alınması üçün səy göstərməlidirlər. Gənclər arasında ailədən qaçmaq, azad yaşamaq, dərslərdən, valideyn və müəllim tövsiyələrindən, ağsaqqal və ağbirçək nəsihətlərindən bezikmək hallarının olması faktdır. Hər bir kəsin - istər valideynlər olsun, istərsə də müəllimlər, ziyalılar və düşüncə tərzi sağlam olan gənc dostlar belə telefon, film və sairlərdən səmərəli istifadə etmək və ondan faydalanmaq üçün təbliğat aparmalı, yeniyetmə və gəncləri düzgün istiqamətləndirməlidir.

**Daha parlaq və sərbəst həyat axtarışında**

Hamımıza məlumdur ki, düşüncə tərzindən asılı olaraq sosial səhifə, telefondan istifadə qaydalarının səhv yönləndirilməsindən ailələr arasında da parçalanmalara son illər daha çox təsadüf edilir. Ailəli şəxslər belə hadisə və vərdişlərin qurbanları olurlar. Dünyaya gətirdikləri körpələr isə belə insanların səhv addımlarının qurbanlarına çevrilirlər. Ailələr arasında faciələr çoxalır. İstər ata, istərsə də analar övladlarını və isti yuvalarını buraxaraq daha "parlaq" həyat və sərbəstlik arxasınca qaçırlar və sonda faciələrlə qarşılaşırlar. Son illərin nikah pozulmalarına diqqət etsək, bu daha bariz şəkildə bizə aydın olar.

Son illər xarici vətəndaşlarla ailə qurmaq, nikahsız yaşama hallarına, otel həyatından məmnun olanlarla rastlaşırıq. Və bunun əsas səbəbini də sosial mediadan düzgün və faydalı istifadə edilməməsində görürük. Bəzən gender bərabərliyi birtərəfli şəkildə qabardılır...

Ailə qurularkən tələsikliyə yol verilir, sonra isə qarşılaşdığı problemlərə görə ailənin möhkəm bazası olmadığı üçün dağılır. Ailənin möhkəm bazası isə sosial və maddi problemlərdən, tərbiyə və düzgün formalaşmadan asılıdır.

İş yerlərinin azlığı və əhalinin dolanışıq tərzinin aşağı olması, ətrafa istinadən bəzən asan pul qazanma istəkləri də çox zaman ailə faciələri ilə nəticələnir. Qumar və s. bu tipli oyunların sonluqları da hər kəsə məlumdur.

Onu da qeyd edək ki, respublikamızda deyil, öz rayonumuzda 2023-cü il üzrə nikah pozulmaları və uşaqlarla ünsiyyət tələbinə dair işlər üzrə məlumatlara istinadən deyə bilərik ki, rayonumuzda son ildə bağlanan 617 nikahdan 179 nikah pozulması baş vermişdir. Bu isə əvvəlki illərdəkinə əsasən daha çox sayılır. Ailələr arasında baş verən hər bir mənfi xarakterli hadisə o ailədəki uşaqların psixologiyasına mənfi təsir göstərir, tərbiyəsində öz əksini tapır.

Hər bir ziyalı, hər bir şəxsiyyət yeniyetmə və gənclərin düzgün formalaşmasında öz müqəddəs borcunu və məsuliyyətini bilməli və real hərəkət etməlidir. Hər bir orta və yaşlı nəsil də unutmamalıdır ki, onların ən adi hərəkəti, davranış tərzi, danışığı bu günkü nəslin tərbiyəsində müstəsna roldadır. Məhz buna görə də hər kəs ilk növbədə öz məsuliyyət hissini dərk edərək fəaliyyətə başlamalı və sabahımız üçün sağlam nəsil, sağlam gələcək yaratmaq üçün çalışmalıdır. Təkcə sosial mediyaya arxalanmamalı, keçmişimizi - xalqımızın zəngin mənəviyyatını, vətənpərvərliyini təbliğ etməli, şəhadətə qovuşanların yazdığı Zəfər tarixinə layiq nəsillə gələcək qurulmalıdır.

Açdığımız bu rubrika ilə oxucularımızın maraqlı yazılarını gözləyirik.

**Bibixanım İSAYEVA.**

# Yaşıl dünya naminə

Bildiyimiz kimi, ölkə prezidenti İlham Əliyev Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərancam imzalamışdır. Sərancamda bildirilir ki, Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhvəsini verir.



Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafına dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir.

Hər bir xalqın milli, mədəni səviyyəsi onun təbiətə münasibətilə ölçülür. Çünki yaşıl dünya insanların, eləcə də, bütün canlıların sağlamlıq qarantıdır. Təbiəti qorumaq həyatı qorumaq deməkdir. Prezidentimizin verdiyi sərancama əsasən hər kəs yaşıl ölkə-təbiətimizin daha da gözəlləşməsi və zənginləşməsi üçün fəal olmalıdır. Ermənilərin işğalında olarkən viranə olmuş torpaqlarmızda yaşıl dünyanın yenidən bərpası və zənginləşdirilməsi nəzərdə tutulmuşdur. Ancaq bütün ərazilərdə təbiətin daha da yaşıllaşdırılmasına diqqətlə yanaşmalı, ölkə rəhbərinin sərancamına əsasən verilən qərarları həyata keçirməliyik. İnsan və təbiət yaşam mücadiləsində bir-birinə bağlıdır. İnsanın yaşaması üçün lazım olan 3 əsas faktor- su, hava və qida məhz təbiətdən alınır. Təbiəti qorumaq üçün isə ilk növbədə yaşıllığı qorumalıyıq.

Meşələr yaşıllığın əsasıdır. Meşələri qorumaq üçün ən ucqar kəndlərdə də mavi alovdan istifadə edilməli, təbiətin yaraşığı olan ağaclar oduncağa çevrilməlidir.

Yeni meşələrin salınması, nadir bitki örtüyünün qorunması bu günümüzün əsas amilidir. Palıd ağacları da məhz bu qəbildəndir.

Palıdlar təklənməsin, daha da sayı çoxalsın deyə hər birimiz qədim təbiətin nümayəndəsi olan bu bitkini çoxaltmalıyıq. Təbiəti sağlam olan ölkənin insanları da sağlam olar.

**Mizəbala YEDİYAROV,**
**Bılıx kəndi.**

# Məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlər başa çatıb

Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıq çərçivəsində 116 saylı Qəbələ seçki dairəsində aşağı seçki komissiyalarının üzvləri üçün maarifləndirici treninqlər davam edir.

Yanvarın 17-dən başlanan treninqlərə dairənin tərkibində olan 59 seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri, ümumilikdə, 354 nəfər cəlb olunub. Dairə seçki komissiyasının sədri Zülfüqar Cəfərovun verdiyi məlumata görə, treninqlərin ilk iki günündə məşğələlərdə 24 seçki məntəqəsi üzrə 144 nəfər iştirak edib. Treninqlərin üçüncü günü, yanvarın 19-da keçirilən məşğələlərdə də 12 seçki məntəqəsinin komissiya üzvləri, yanvarın 22-də 12 və yanvarın 23 -də 11 seçki məntəqəsinin komissiya üzvləri iştirak ediblər, Məşğələlər Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi təlim kursunda iştirak etmiş Aqil Kərimov və Rəşad Mürşüdov tərəfindən aparılıb. Beləliklə dairə üzrə treninqlər yanvarın 17 dən başlayaraq 5 gün mütəmadi davam edirilib.

Təlim prosesində iştirakçılara MSK tərəfindən tərtib edilmiş xüsusi proqram və slaydların köməyi ilə məntəqə seçki komissiyası üzvlərinin rol və vəzifələri, seçki günü prosesləri və müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması, yekun protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumatlar verilir. Diqqətə çatdırılır ki, seçkilərin şəffaf keçirilməsi məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsindən çox asılıdır. Ona görə də komissiya üzvləri öz peşəkarlıq səviyyəsini, bilik və bacarıqlarını daha da artırmalı, seçki günü üzərilərinə düşən vəzifələri dəqiq bilməli və layiqincə yerinə yetirməlidirlər. Maarifləndirici treninqlər dairə seçki komissiyası tərəfindən mütəmadi olaraq davam etdirilir.

Dairə seçki komissiyası sədrinin məlumatına görə, dəqiqləşdirilmiş son seçici siyahılarına görə, seçicilərin ümumi sayı 53 min 597 nəfərdir. Onlardan 856 nəfəri 80-100 yaş arasındadır. 3720 gənc isə ilk dəfə səs verəcək. İndiyədək 720 nəfər yerli müşahidəçi dairədə qeydiyyatdan keçib.

116 saylı Qəbələ seçki dairəsini əhatə edən 59 seçki məntəqəsi səsvermə gününə tam hazır vəziyyətə gətirilmişdir. Belə ki, məntəqə seçki komissiyaları MSK tərəfindən verilmiş bütün lazımı avadanlıqlarla tam təmin olunmuşdur.